BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# DƏRS-OYUN FORMASINDA KEÇİRİLƏN SEMİNAR

D.M.MUSAYEV
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnteraktiv metodla tədris heç də qeyri-adi və yeni deyil. Sinifdə sual verilirsə və ya tapşırıq verilib, yoxlanılırsa və yaxud qrup şəklində müzakirə təşkil edilirsə, deməli, dərs artıq interaktiv üsulla öyrədilir. Daha sonra interaktiv təlim şagirdlərə tapşırıq verib, onların bu tapşırığı yerinə yetirdiklərinə nəzər salıb, özlüyündə müqayisə edib və daha sonra nə etməyin məqsədəuyğun olduğunu qərara almaqdır.

Müasir dövrdə tədrisin məqsədi bir qədər dəyişilib və yalnız bilik, bacarıq və vərdişlərin qazanılmasında deyil, həm də şagirdin maarifləndirmə trayektoriyasının subyekti kimi hazırlanmasından ibarətdir. Lakin əsas məqsədlər onilliklərdir ki dəyişilməz olaraq qalır: əsas həll vasitəsi idraki aktivlik olan şəxsiyyətin tərbiyə olunması və inkişaf etdirilməsidir. (5)

Azərbaycan tarixinin interaktiv üsullarla tədrisi müəllim və şagirdin ünsiyyətini nəzərdə tutur. Bu da şəxsiyyətin yaradıcı bacarıqlarının inkişafına, vəziyyəti seçmək bacarığının təkmilləşdirilməsinə, "ixtiraçılıq" və "kəşf etmə"ni stimullaşdıran fəaliyyətə doğru istiqamətləndirir. Göstərilən Azərbaycan tarixinin interaktiv üsullarla tədrisi xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar: əqli həmlə, rollu və iş oyunları, dərs-oyunlar, diskussiyalar, debatlar, kiçik qruplarda iş, treninqlər, dəyirmi masalar, "zərif mişar", "öz mövqeyini tut", "bacarıqlar cədvəli", "konkret vəziyyətlər" və s.

Bəs, dərsi necə qurmaq lazımdır ki, idrak prosesi müəllim və şagirdlər üçün maraqlı və mənalı olsun? Çoxları hesab edir ki, bunun cavabı interaktiv tədrisdir. İnteraktiv dərs – idrak fəaliyyətinin xüsusi formasıdır. İnteraktiv dərs ünsiyyətə qatılmış, lakin son məqsədi və fənnin əsas məzmunu qorunub saxlanılır, yalnız dərsin aparılmasının forma və üsulları dəyişilir. O tam dəqiq və proqnozlaşdırıla biləcək məqsədləri nəzərdə tutur. Belə məqsədlərdən biri rahat tədris şəraitinin yaradılmasıdır ki, orada şagird özünün müvəffəqiyyətini, öz intellektual səviyyəsini hiss edir və bu da prosesin özünü səmərəli edir.

İnteraktiv tədrisin mahiyyəti ondan ibarətdir ki, dərs prosesi elə təşkil olunur ki, dərketmə prosesinə bütün şagirdlər qatılmış olur. Onların fikirləşdiklərini və gördüklərini təhlil etməsi mümkün olur. Materialının dərk edilməsi və mənimsənilməsi prosesində şagirdlərin müştərək fəaliyyəti o deməkdir ki, onlar hərəsi öz əlavəsini edir: bilik, fikir, fəaliyyət üsullarının mübadiləsi xeyirxahlığı və köməklik atmosferində getdiyi üçün idraki fəaliyyəti inkişaf etdirib, yeni biliklər əldə etməyə

imкan yaradır. (3)

Aşağıda X sinfin "XIX əsrin 70-90-cı illərində кənd təsərrüfatı və sənaye" mövzusunun müxtəlif seminar-dərs modelləri ilə tədrisi üsullarına diqqət edəк. Mövzunun tədrisi üçün iкi seminar-dərs aparılması məsləhətdir. Bunun üçün müəllim əvvəlcədən əlavə dərs saatı ayırır. Qoşa saat seminar-dərsini müxtəlif interaкtiv dərs modeli ilə кeçməк mümкündür. Seminar-dərsin кeçirilməsi üçün müəllim şagirdlərlə 3-4 həftə iş aparmalıdır: dərsin mövzusuna aid ədəbiyyat verməli, şagirdləri qrupda işləməyə öyrətməli, məsləhətlər təşкil etməli və s.

**Dərsin mövzusu**: "XIX əsrin 70-90-cı illərində кənd təsərrüfatı və sənaye"

**Seminar-dərsin modeli**: intelleкtual oyun

**Dərsin məqsəd və vəzifələri**:

**Biliкlər**:

- XŞX əsrin 70-90-cı illərində Azərbaycanın кənd təsərrüfatı və sənayesi haqqında təsəvvür yaratmaq;
- Çarizmin Şimali Azərbaycanda həyata кeçirdiyi siyasətin iкili xaraкterini aydınlaşdırmaq.

**Bacarıqlar**:

- mövzudaкı yeni anlayışların izah edilməsi;
- şagirdlərdə tarixi hadisələri analiz – sintezetmə bacarığının formalaşdırılması, кolleкtivdə və qrupda işləmə vərdişlərinin yaradılması.

**Dəyərlər**:

- bol sərvətli vətənimizə hörmət;
- tarixi кeçmişimizə ehtiram;
- özünüqiymətləndirmədə obyeкtivliyin və şəxsiyyətin özünütəsdiq təşəbbüsünün tərbiyə etdirilməsi.

**Dərsin təchizi**:

- şəкillər (Balaxanıda neft mədənləri, Qara Şəhər Zavodlar rayonu, Qarabağ кilimi);
- xronoloji sual кartları.

**Dərsin planı**:

- Müəllimin giriş sözü, oyunun qaydalarının izahı;
- Oyun. Birinci raund "Giriş", İкinci raund "Tarixi xəritə", üçüncü raund "Xronologiya", dördüncü raund "Sən mənə, mən sənə" və beşinci raund "Çoxbilmişlər";
- Oyunun nəticələrinin elanı;
- Mövzunun planı:

1. XIX əsrin 70-90-cı illərində Azərbaycanda кənd təsərrüfatında dəyişiкliкlər;
2. Кənddə təbəqələşmənin səbəbləri;
3. Rusiyanın Azərbaycanda кənd təsərrüfatına təsiri;
4. Azərbaycanda neft sənayesində XİX əsrin 70-90-cı illərində dəyişiкliкlər;
5. Neft istehsalı ilə bağlı sahələrdə vəziyyət.

**Dərsin gedişi**:

**Müəllimin giriş sözü.**

Biz yeni dərsin müzakirəsini bir qədər fərqli formada aparacağıq. Bu dərsin keçirilmə forması – seminar-oyundur. Oyun üç komanda arasında aparılacaq, bu "Azəri", "Aypara" və "Araz" komandalarıdır. Sonra müəllim giriş sözündə şagirdləri oyunun raundları ilə tanış edir. Birinci raundda hər oyunçu cavab verə bilər. Suala ilk olaraq əlini qaldıran şagird cavab verir. Hər düz cavaba bir bal verilir, oyunu tarixi yaxşı bilən, yuxarı siniflərdən dəvət olunmuş şagirdlər izləyir və lövhədə qeydlər aparırlar.

Şagirdlər üç komandaya bölünərək kapitan seçirlər. "Azəri" komandasına əkinçilik və maldarlıq, "Aypara" komandasına kənddə ictimai təbəqələşmənin başlanması, "Araz" komandasına Rusiyanın Azərbaycanın kənd təsərrüfatını özünün xammal bazasına çevirmə siyasəti ilə bağlı sual verilir.

**Oyun. Birinci raund. "Giriş"**

Müəllim: "Hörmətli iştirakçılar. 20 dəqiqə ərzində siz mənim suallarıma düzgün cavab verməlisiniz. Əgər komanda sualın cavabını bilmirsə, suala rəqib komanda cavab verə bilər. Cavablar 0 və 1 balla qiymətləndirilir.

"Azəri" komandasına suallar:

- 1870-ci ildə islahatından sonra Azərbaycanın kənd təsərrüfatında nə kimi dəyişikliklər oldu?
- Cənubi Azərbaycandan və qonşu ölkələrdən Şimali Azərbaycana gələn kəndlilərin əsas məqsədi nə idi?
- Yerli mesenatlar kənd təsərrüfatına necə yardım edirdi? Onlardan kimlərin fəaliyyətini qeyd edə bilərsiniz?
- Kapitalizmin inkişafı ilə əlaqədar torpaqla bağlı hansı dəyişikliklər oldu?
- Torpağın icarəyə verilməsinin və ya alğı-satqı obyektinə çevrilməsinin mahiyyətini açıqlayın.
- Əsas əkinçilik bölgələrini xəritədə göstərin. Əkinçilikdə ixtisaslaşmanın səbəblərini açıqlayın.

"Aypara" komandasına suallar:

- Kənd təsərrüfatının kapitalistcəsinə inkişafı hansı sahələrdə özünü daha qabarıq göstərirdi?
- Kənd təsərrüfatında muzdlu əmək tətbiqinin genişlənməsi nə ilə bağlı idi?
- Kənd təsərrüfatında əkinçilik alətlərinin tətbiqində hansı yeniliklər edildi?
- Texniki bitkilərdən hansıları tanıyırsız? Onların becərilməsi nə üçün tənəzzülə uğradı? Texniki bitkilərin becərildiyi bölgələri xəritədə göstərin.
- 80-90-cı illərdə kənd təsərrüfatının hansı növü gəlirli sahəyə çevrildi? Nə üçün?
- Azərbaycan kəndində sosial təbəqələşmənin səbəbləri və nəticələrini açıqlayın.

"Araz" komandasına suallar:

- Kəndlilərin aztorpaqlı olmasının əsas səbəbi nə idi?

- Suvarma işinin tənzimlənməsində hökumətin məqsədi nə idi?
- "Sudan istifadə haqqında Əsasnamə"nin verilməsi və onun məqsədləri.
- Kəndlilərin vergi və mükəlləfiyyətlərinin ağırlaşmasının səbəbləri hansılardır?
- Rusiya hökumətinin Azərbaycan kəndlilərindən hərbi vergi yığmaqda məqsədi nə idi?
- 70-90-cı illərdə Azərbaycanda kənd təsərrüfatının vəziyyətini qiymətləndirin.

Beləliklə, müstəqil hazırlıq nəticəsində qazanılan bilikləri və gəldikləri qənaətləri şagirdlər öz yoldaşlarına izah edirlər. Yoldaşlar isə buna öz əlavə və düzəlişlərini, münasibətlərini bildirirlər. Qarşılıqlı fəaliyyət nəticəsində şagirdlərin yaradıcı-axtarış bacarığı inkişaf edir və təfəkkürü fəallaşır.

**İkinci raund " Tarixi xəritə"**

Komandalar lövhədə asılan kartlardan hərəyə bir ədəd çəkir və yaxud kartın nömrəsini deyir.

Tapşırıq:

- Əhalinin əkinçiliklə məşğul olduğu əsas əraziləri xəritədə göstərin.
- Texniki bitkilərin becərildiyi ərazini göstərin. Hal-hazırda orada hansı bitkilərin becərilib-becərilməməsini və bunun səbəbini açıqlayın.
- Kəndlilərin aztorpaqlılıqdan əziyyət çəkdiyi əsas rayonları xəritədə göstərin.

Xəritə ilə işləyərkən şagirdlər Azərbaycan regionlarının hansı kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi sahəsində ixtisaslaşdığını, aztorpaqlılığın təsirini müəyyənləşdirirlər.

**Üçüncü raund "Xronologiya"**

Komanda kapitanları tarixlər olan kartları çəkir və komanda cavab verir.Hər komanda üç tarixdə baş vermiş hadisə haqqında qısa məlumat verir.

1. 1869, 1875, 1890,
2. 1850, 1871, 1887,
3. 1870, 1877, 1896.

Bu sualların köməyilə xronoloji biliklər təkrarlanır. Qruplar göstərilən tarixlərdə baş vermiş hadisələr haqqında bir-birlərinə məlumat verirlər. Beləliklə, sinfin bütün şagirdləri bu məlumatlarla tanış olurlar.

**Dördüncü raund "Mən sənə, sən mənə"**

Hər kapitan, komandanın adından bir sual verir və onun cavabını qiymətləndirir.

Hər komanda şah sualı hazırlayaraq rəqib komandanı sınağa çəkməklə mövzunun əsas məsələlərinin mənimsənilməsində çatışmazlıqları aşkara çıxarır. Bu məqsədlə aşağıdakı kimi suallardan istifadə edilə bilər:

1. kənd təsərrüfatının kapitalistcəsinə inkişafının əsas səbəblərini izah edin;

2. neft sənayesinin inkişafının səbəblərini açıqlayın;
3. millətin təşəkkülü üçün obyektiv zəmin təşkil edən amilləri göstərin.

**Beşinci raund "Çoxbilmişlər"**

Komanda kapitanlarının hər biri hərəyə tapşırıq yazılmış iki kart çəkir və beş dəqiqə komanda ilə müzakirə etdikdən sonra ona cavab verir.

Tapşırıqlar :

- milli kapital daha çox hansı sənayeyə qoyulurdu? Bunun səbəblərini izah edin;
- kənd təsərrüfatının hansı sahələrində inkişaf daha çox diqqəti cəlb edirdi? Bunun səbəblərini izah edin;
- Azərbaycan kəndində sosial təbəqələşmənin səbəblərini müəyyənləşdirin və nəticələrini izah edin;
- Şimali Azərbaycanın kənd təsərrüfatında kapitalist əsaslarının mövcud olmasının səbəblərini izah edin;
- Rusiyanın Azərbaycanda aqrar siyasəti nə ilə nəticələndi?
- Azərbaycanda gildiya ticarət qaydalarının tətbiq edilməsinin əhəmiyyətini izah edin.

**Oyunun nəticələrinin elanı**

Münsiflər heyəti müəllimlə birlikdə yerləri müəyyənləşdirib nəticələri elan edir. Qalib komanda ən çox xal gətirən üç iştirakçının adını elan edir. Onlar komandanın xal toplamasından asılı olaraq 9-10 bal alır.

Digər komandaların hər birindən iki adam elan etməklə 8, 7 balla qiymətləndirilir.

Nəticədə müəllim yekun sözünü deyir, qalib komandanın adını və seçilən şagirdlərin adlarını elan edir.

Dərsdə əldə olunan bilik gələcəkdə Azərbaycan tarixinin öyrənilməsində lazım olacaq və tarixi proseslərin daha yaxşı dərk edilməsində öz müsbət təsirini göstərəcəkdir.

Uşaqların maraq dairəsini artırmaq üçün bu dərsin davamını başqa dərs-oyun modeli ilə keçirmək daha məqsədəuyğundur. Belə olan halda şagirdlər yorulmur, əksinə, dərsin davam etdirilməsinə daha çox maraq göstərirlər.

**Seminar-dərsin modeli: *"Kim? Nə? Harada?" dərs-oyun*,**

**Dərsin planı:**

Azərbaycan tarixini ən yaxşı bilən şagirdlərdən 6 iştirakçı və sual verən 12 nəfərlik iki komanda seçilir.

**Tərtibat:**

Lövhədə "Kim? Nə? Harada?" yazılır, "İştirakçılar komandası" və "Tamaşaçılar komandası" yazılır. Xüsusi kartonlarda 0-dan 6-ya qədər rəqəmlər yazılmış tablolar asılır. Sinif otağının mərkəzində bölmələr üzrə stollar düzülür, mərkəzdə isə çarx qoyulur.

**Dərs-oyunun qaydaları:**

Mövzu və komanda üzvləri elan olunur. İştirakçılar növbə ilə masa arxasında öz yerlərini tuturlar. Müəllim oyunun qaydalarını elan edir:

1. Oyun 6 xal toplayana qədər davam edir.
2. Sualı verən şagird cavabı diqqətlə dinləyir və əgər cavab tam deyilsə, özü onu tamamlayır;
3. Əgər cavab "əla" qiymətləndirilirsə, iştirakçılar bir bal qazanır, əgər aşağı qiymətləndirilirsə, xalı "Tamaşaçılar komandası" qazanır,
4. Komandanın kapitanı və ya müəllim musiqili pauzadan istifadə edə bilər.
5. Komandanın oyununu kapitan idarə edir və əgər iştirakşılar cavabdan imtina edirsə, suala kapitan özü cavab verir,
6. Sualın müzakirəsinə bir dəqiqə verilir. Əgər suala vaxtından əvvəl cavab verilərsə, müzakirəyə verilən həmin (bir) dəqiqə komandanın ehtiyatında qalır və çətin sualın müzakirəsi zamanı komanda əlavə vaxt kimi ondan istifadə edir.,
7. Dərsin (oyunun) sonunda ən yaxşı iştirakçı elan olunur.

**Dərsin gedişi:**

İştirakçılar növbə ilə çarxı fırladır, ox işarəsi oyuna daxil olan bölməni göstərir.

1-ci bölmə sual verir:

70-80-ci illərdə neft sənayesinin inkişafına hansı amillər təsir göstərdi?

2-ci bölmə sual verir:

1872-ci ildə neft hasilatına təsir edən hansı dəyişikliklər baş verdi?

3- cü bölmə sual verir:

90-cı illərdə neftin fontan üsulu ilə çıxarılmasına marağın azalmasının səbəbi nə idi?

4-cü bölmə sual verir:

Hansı hadisədən sonra Azərbaycana xarici kapitalın axını başladı?

5-ci bölmə sual verir:

Buruq üsulu ilə qazılan ilk neft quyusu neft hasilatına nə kimi təsir göstərdi?

6-cı bölmə sual verir:

Neft sənayesinin başqa istehsal sahələri ilə əlaqəsini və onların inkişafına təsirini sübut edin.

7-ci bölmə sual verir:

"Neft Sənayeçiləri Qurultayı" nə vaxt çağırıldı və onun əsas məqsədi nə idi?

8-ci bölmə sual verir:

"Bakı Ağ Neft Zavodçuları İttifaqı"nın yaradılmasının əsas məqsədini göstərin.

9-cu bölmə sual verir:

İnhisarların meydana gəlməsinin əsas səbəbləri nə idi?

10-cu bölmə sual verir:

Bakı şəhəri hansı hadisə ilə Ümumrusiya bazarına bilavasitə çıxmaq imkanı əldə etdi?

**Musiqili pauzalar:**

Komanda üzvləri fasilə etmək üçün musiqili pauzadan istifadə edə bilər. Fasilədə Azərbaycan klassik musiqisi və vətənpərvərlik mövzusunda musiqilərdən istifadə olunması məsləhətdir.

- "Azərbaycan". İfa edir Rəşid Behbudov.
- Səməd Vurğun. "Azərbaycan" (şeir).

**Dərsin yekunu:**

Hesablama, qiymətləndirmə aparılır, ən yaxşı bilən oyunçu seçilərək elan olunur.

Azərbaycan tarixinin tədrisində idraki fəaliyyəti fəallaşdırmağa bu cür dərslər yaxşı kömək edir. Şagirdlərə birmənalı olmayan tapşırıq verərək onları aktiv müzakirələrə cəlb etmək olur. Təlim prosesində şagirdlər arasında qarşılıqlı ünsiyyət yaranır, cütlük, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir.

**QEYDLƏR**

1. Azərbaycan tarixi. X sinif. Bakı: 2006,.
2. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: 2005.
3. Bünyatova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı: 2000.
4. Fəal təlim – təhsil islahatımızın tələbidir. Həyati bacarıqlara əsaslanan təhsil. (Müəllimlər üçün tədris vəsaiti /V-XI sinif/) Bakı: 2006.
5. Загрекова Л.В., Николина В.В. Теория и технология современного обучения. 2004.

**СЕМИНАР, ПРОВЕДЕННЫЙ В ФОРМЕ УРОКА-ИГРЫ**

**Д.М.МУСАЕВ**

**РЕЗЮМЕ**

Сегодня в наших школах началось применение новых форм и методов обучения. Одним из этих методов обучения является интерактивный метод обучения. Суть интерактивного метода заключается в том, что процесс урока организуется таким образом, что в процесс познания вовлекаются все учащиеся. В статье дана форма урока по истории, проведенного интерактивным методом. Форма и содержание статьи показывает, что не только учителя истории смогут применить эту модель урока, но и учителя других предметов.

**THE SEMINAR SPENDS AS LESSON-GAME FORM**

**D.M.MUSAYEV**

## SUMMARY

Today new methods and forms of training are begins to employ in our schools. One of these is interactive training. The point of interactive training is that, the lesson process is organized thus way that, all pupils are joined to understanding process. The teaching possibilities and importance of the azerbaijan history with the interactive methods is emphasized in the articla. And it is proved that the interactive method is the method that provides the activity of the pupils by its very nature.